BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Sosial-siyasi elmlər seriyası 2013*

**UOT: 341: 342 (4/9); 341.29 (100)**

# ELEKTRİK ENERJİSİNİN VƏ TƏBİİ QAZIN NƏQLİ SFERASINDA NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DİGƏR DÖVLƏTLƏRLƏ ƏMƏKDAŞLIĞININ BEYNƏLXALQ-HÜQUQİ MƏSƏLƏLƏRİ

**S.V.TALIBOV**
***Naxçıvan Dövlət Universiteti***
***s.talibov@gmail.com***

*Məqalədə elektrik enerjisinin və təbii qazın nəqli sferasında Naxçıvan Muxtar Respublikasının digər dövlətlərlə əməkdaşlığının beynəlxalq hüquqi məsələləri araşdırılır. Göstərilir ki, Naxçıvan Muxtar Respublikasının avtonom vəziyyəti onun enerji təminatında beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirməsini tələb edir. Müəllif elektrik enerjisinin və təbii qazın nəqli sferasında Naxçıvan Muxtar Respublikasının İran və Türkiyə ilə bağladığı əsas sazişləri ətraflı təhlil edir.*

**Açar sözlər**: elektrik enerjisi, təbii qaz, regional əməkdaşlıq, enerji resursları, müqavilə, memorandum, konstitusiya, geosiyasi vəziyyət

Naxçıvan Muxtar Respublikasının (MR) avtonom vəziyyəti onun enerji təminatında beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirməsini tələb edir. Bu mənada region dövlətlərindən İran İslam Respublikası (İİR), Türkiyə ilə enerji resurslarının, o cümlədən elektrik enerjisinin mübadiləsi, ötürülməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının (AR) qonşu dövlətlərlə regional enerji təhlükəsizlik strategiyasının bir istiqamətini də məhz Naxçıvanın enerji təhlükəsizliyi məsələləri təşkil edir. Bu məsələ üzrə beynəlxalq hüquqi əməkdaşlığın tarixi 1992-ci ilə təsadüf edir.

İran İslam Respublikasının dəvəti ilə Naxçıvan MR Ali Məclisinin Sədri Ümummilli Lider Heydər Əliyevin İran İslam Respublikasına səfəri zamanı 24 avqust 1992-ci il tarixli imzalanmış "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikası arasında əməkdaşlıq protokolu" ilə qoyulmuşdur. Daha sonra Azərbaycan Respublikası Naxçıvan MR-in enerji təhlükəsizliyi istiqamətində İranla «Xudafərin» və «Qız qalası» su bəndlərinin inşasına dair «Hidro və elektroenergetika sahələri üzrə əməkdaşlıq haqqında» 2 iyul 1994-cü il tarixində Memorandum imzalamışdır.

Energetika sferasının da inkişaf etdirilməsi məqsədilə AR ilə İİR arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında 2002-ci il

Müqaviləsi ilə tərəflər energetika sektorunda qarşılıqlı sərmayə qoyuluşuna imkan yaratmaq, əlverişli hüquqi şəraitin müəyyən edilməsini təmin etmək kimi öhdəliklər qəbul ediblər (m.14). Müvafiq sahədə daha əlverişli rejim prinsipi müəyyən olunub (m.15).

Bu Müqavilənin 21-ci maddəsi bütövlükdə 2 iyul 1994-cü il Memorandumunun icrası zərurətinə həsr edilib. Qeyd edilir ki, Razılığa gələn Tərəflər iki ölkə arasında birgə əməkdaşlığın genişləndirilməsində "Xudafərin" və "Qız qalası" bəndlərinin inşasının əhəmiyyətini nəzərə alaraq, su bəndlərinin inşasına dair Azərbaycan Respublikası və İran İslam Respublikası arasında hidro və elektroenergetika sahələri üzrə əməkdaşlıq haqqında 2 iyul 1994-cü il tarixində imzalanmış Memorandumun müddəalarının icrasını təmin edəcəklər.

1994-cü il Memorandumun tənzimetmə obyektini təşkil edən məsələlər sonrakı anlaşmalar üçün də əsas olmuşdur. Belə ki, 2010-cu il noyabrın 17 Bakıda imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun 1-ci maddəsində qeyd edilir ki, Tərəflər Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında "Xudafərin" və "Qız qalası" hidroqovşaqları və su elektrik stansiyaları ilə bağlı Sazişin razılaşdırılması üçün danışıqlar prosesinin sürətləndirilməsi və 2011-ci ilin birinci rübündə imzalanmasının təmin edilməsi barədə razılığa gəlirlər.

Memorandumda iki ölkə arasında elektroenergetika sferasında beynəlxalq hüquqi əməkdaşlığın bir istiqamətini də digər SES-lərin tikintisi üzrə razılaşmaya həsr edilib. 2-ci maddədə qeyd edilir ki, Tərəflər Ordubad və Marazad su elektrik stansiyalarının yerlərinin müəyyən edilməsini, layihə və digər sənədlərin qarşılıqlı razılaşdırıldığını nəzərə alaraq hazırkı Memorandumun imzalandığı tarixdən altı ay bitdikdən sonra hər bir Tərəfin müstəqil olaraq Ordubad və Marazad su elektrik stansiyasının tikintisinə istənilən vaxt başlaya biləcəyi barədə razılığa gəlirlər. Həmin maddədə deyilir ki, Tərəflər tikinti işlərinin başlanması barədə bir birinə 10 gün əvvəl məlumat verəcəklər.

Energetika sferası da daxil olmaqla Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi məqsədilə Dövlətlərarası Müştərək Komissiya təşkil edilmişdir. Bu Komissiya mütəmadi olaraq müəyyən edilmiş əməkdaşlıq istiqamətlərini öyrənib müzakirə etməkdədir. Müzakirələrin sonu üçün hər dəfə müvafiq Memorandum qəbul edilir. Məsələn, 2005-ci ildə Komissiyanın 6-cı iclasının nəticələri üzrə Memorandumun Enerji bölməsində qeyd edilir ki, Tərəflər 24 yanvar 2001-ci il tarixli Elektrik enerjisinin mübadiləsi və tranziti barədə Müqavilənin və ona müvafiq əlavələrin, həmçinin Naxçıvan Muxtar Respublikasına elektrik enerji tranzitinin artırılmasına dair 10 mart 2003-cü il tarixli Protokolun icrasından razılıqlarını bildirirlər. Bu sahədə əməkdaşlığın genişləndirilməsi məqsədilə 132 kV-luq Culfa (İran) – Culfa (Azərbaycan) elektrik xəttinin tikintisini müsbət addım kimi qiymətləndirirlər.

Memorandumda deyilir ki, Tərəflər Naxçıvan Muxtar Respublikasına

elektrik enerjisi tranzitinin artırılması məqsədilə İranın Culfa yarımstansiyasından Naxçıvan Muxtar Respublikasına 230 kV-luq elektrik verilişi xəttinin çəkilməsi barədə ekspert müzakirələrinin keçirilməsini və texniki-iqtisadi araşdırmaların aparılmasını məqsədəuyğun hesab etdilər və bu Memorandumun imzalanmasından sonra, 5 ay müddətində hər iki Tərəfin ekspert qrupları arasında texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanmasını vurğulayırlar (m.2.3). Daha sonra Tərəflər Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası və İran islam Respublikası ilə həmsərhəd olan hissədə Araz çayının su enerjisi potensialından bərabər və birgə istifadə məqsədilə Ordubad (Azərbaycan Respublikası) bölgəsinə üstünlük verərək, su elektrik stansiyalarının layihələşdirilməsi və tikintisi zamanı qarşılıqlı əməkdaşlığın zəruriliyini vurğulamış (m.2.4), alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması məqsədilə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd edirlər (m.2.5).

Memorandumda gələcək əməkdaşlıq istiqamətləri də müəyyən edilib. Belə ki, Tərəflər Naxçıvan Muxtar Respublikasının Şahtaxtı məntəqəsinin İranın Poldəşt məntəqəsi vasitəsilə elektrik enerjisi ilə təmin edilməsinə dair Azərbaycan tərəfinin yazılı təklifinin İran tərəfindən texniki-iqtisadi baxımdan araşdırılması barədə razılığa gəlirlər.

Elektroenergetika sferasında olduğu kimi təbii qazın Naxçıvan MR-ə verilməsində də ilk əməkdaşlıq İİR ilə həyata keçirilmişdir. İranla bərabər bu sahədə beynəlxalq hüquqi əməkdaşlıq Türkiyə Respublikası ilə də qurulmuşdur. Türkiyə ilə qaz sənayesində əməkdaşlıq əsasən investisiya qoyuluşu formasında təmin edilməkdədir. Lakin, Naxçıvan MR-in qaz təchizatında İrandan asılılığı aradan qaldırmaq, alternativliyi təmin etmək məqsədilə Türkiyədən Naxçıvan MR-ə qaz kəmərinin çəkilişi üzrə Protokol qəbul edilmişdir.

16-17 iyul 2010-cu il tarixlərdə Türkiyə Respublikasının enerji və təbii ehtiyatlar naziri Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur. Nümayəndə heyətinin tərkibində Türkiyənin BOTAŞ şirkəti də yer almışdır. Səfər zamanı 17 iyul 2010-cu il tarixdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Türkiyənin BOTAŞ şirkəti arasında Türkiyədən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qaz boru kəmərinin çəkilməsi barədə Niyyət Protokolu imzalanmışdır.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında 2002-ci il Müqaviləsinin 14-cü maddəsində deyilir ki, Razılığa gələn Tərəflər bir-birinin ərazilərində qarşılıqlı sərmayə qoyuluşuna imkan yaradacaq, əlverişli iqtisadi, maliyyə, hüquqi şəraitin yaradılmasına, Əlavə olaraq, Tərəflər kəşfiyyat, istismar, emal, alqı-satqı, neft və qazın nəqli və həmçinin müvafiq sənaye və neft-kimya müəssisələrinin inşasına şamil olunan enerji ehtiyatları sahəsində ikitərəfli əməkdaşlıq səviyyəsinin yüksəldilməsi haqqında razılığa gəlmişlər.

Konkret olaraq həmin Müqavilənin 23-cü maddəsi qaz kəmərinin çəkilişinin beynəlxalq anlaşmasını nəzərdə tutur. Həmin maddədə qeyd edilir

ki, Razılığa gələn Tərəflər Naxçıvan Muxtar Respublikasında enerji çatışmazlığını nəzərə alaraq, İran qazının Naxçıvana nəql edilməsi üçün Xoy-Culfa qaz kəmərinin çəkilməsi barədə razılığa gəlirlər. Müqavilə qaz kəmərlərinin çəkilişi sferası da daxil olmaqla yarana biləcək mübahisələrin diplomatik vasitələrlə həllini nəzərdə tutur (m. 27).

Energetika sferası da daxil olmaqla Azərbaycan Respublikası ilə İİR arasında əməkdaşlıq üçün təsis edilmiş Dövlətlərarası Müştərək Komissiya Naxçıvan MR-in qaz təchizatını da davamlı olaraq diqqətində saxlamışdır. Belə ki, 2002-ci il 29-30 oktyabr Bakı şəhərində keçirilən 5-ci iclasının nəticələri barədə Memorandumun enerji bölməsində deyilir ki, Naxçıvan Muxtar Respublikasının daxilində qaz şəbəkəsinin bərpası, yeni qaz xətlərinin çəkilməsi və qazpaylayıcı stansiyaların quraşdırılması nəzərdə tutulur.

Tərəflər bağladıqları beynəlxalq müqavilələrə uyğun olaraq hüquqi və fiziki şəxslərin bir-birinin ərazisində səmərəli fəaliyyət göstərmək, yaşamaq, qalmaq üçün hüquqi şəraiti təmin edirlər. Kommersiya strukturlarının nümayəndələri üçün sərhəddən sadələşdirilmiş keçid mexanizmləri nəzərdə tutulur. Yenə də Dövlətlərarası Müştərək Komissiyanın 2009-cu il 17-19 fevral tarixli 7-ci iclasının nəticələri barədə Memorandumun 6.6 maddəsində 2004-cü ildə Azərbaycan "Azəriqaz" QSC və İran Milli Qaz İxracı Şirkəti arasında imzalanmış "Təbii qaz mübadiləsi müqaviləsi"ni lazımı qaydada icra etmək istiqamətində hər iki şirkətin nümayəndələrinin Azərbaycan-İran sərhədini (Astara və Culfa) sadələşdirilmiş şəkildə keçmələri üçün lazımı tədbirlər görülməsi ifadə edilib.

Azərbaycan Respublikasının İran İslam Respublikası ilə bağladığı sazişlərdə Naxçıvana veriləcək enerji resurslarının, o cümlədən təbii qazın mübadiləsi xüsusi qaydada tənzimlənməkdədir. Məsələn, Dövlətlərarası Müştərək Komissiyanın 2005-ci il 6-cı iclasının nəticələri haqqında Memorandumda qeyd edilir ki, Azəriqaz" QSC və İran Milli Qaz İxracı Şirkəti arasında imzalanmış "Təbii qaz mübadiləsi" müqaviləsinin həyata keçirilməsini təmin edən məsələlərin həllində Tərəflər maksimum səy göstərəcəklər.

Öncə də qeyd etdiyimiz kimi, İranla Naxçıvan arasında ümumi xarakterli beynəlxalq hüquqi əməkdaşlığın əsası Ümummilli Lider H.Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri olarkən 24 avqust 1992-ci ildə imzalanmış «Azərbaycan Respublikasının Naxçıvan MR və İİR arasında əməkdaşlıq Protokolu»na təsadüf edir. O dövrdə Ümummilli Lider Naxçıvanı blokadadan çıxarmaq üçün ciddi tədbirlər görmüş, həm Türkiyə, həm də İranla əlaqələrin qurulub, inkişaf etdirilməsində H.Əliyev Azərbaycan Respublikası qanunvericiliyi çərçivəsində fövqəladə fəaliyyəti həyata keçirməli olmuşdur. Sonradan AR Konstitusiyasının 136-cı maddəsində ifadə edilən «Naxçıvan MR-in ali vəzifəli şəxsi kimi Naxçıvan Ali Məclisinin sədri» olaraq H.Əliyev Naxçıvanın sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə müvafiq əməkdaşlıq Protokolunu imzalamışdır.

Həm beynəlxalq hüquq, həm də daxili qanunvericilik beynəlxalq müqavilələri bağlamaq səlahiyyəti olan vəzifəli şəxslərin təsnifatını verir. Müqavilələr

hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 7-ci maddəsinin 2-ci hissəsinin «a» bəndində qeyd edilir ki, malik olduqları funksiyaya uyğun olaraq «müqavilənin bağlanmasına aid bütün aktların həyata keçirilməsi məqsədilə dövlət başçıları, hökumət başçıları və xarici işlər nazirləri səlahiyyəti təqdim etməyə zərurət olmadan öz dövlətlərini təmsil etmiş sayılırlar. Bu şəxslər yalnız müqavilə mətninin razılaşdırılmasında deyil, həm də onun imzalanması, qoşulma prosesində, bir sözlə müqavilənin bağlanması ilə əlaqədar bütün prosesləri həyata keçirmək səlahiyyətinə malikdirlər» (4, 28).

Xüsusi səlahiyyət olmadan beynəlxalq danışıqların aparılması və beynəlxalq müqavilələrin imzalanması səlahiyyəti Azərbaycan Respublikasının «Beynəlxalq müqavilələrin bağlanması, icrası və ləğvi qaydaları haqqında» 1995-ci il Qanunun 7-ci maddəsində öz ifadəsini tapıb. Həmin maddədə qeyd edilir ki, xüsusi səlahiyyət olmadan beynəlxalq danışıqlar aparılması və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin imzalanması Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının bütün beynəlxalq müqavilələri barəsində, Azərbaycan Respublikasının baş naziri və Azərbaycan Respublikasının xarici işlər naziri isə bu Qanunun 8-ci maddəsinin ikinci hissəsində göstərilən beynəlxalq müqavilələr istisna olmaqla Azərbaycan Respublikasının digər beynəlxalq müqavilələri barəsində danışıqlar aparmaq və onu imzalamaq hüququna malikdirlər.

Naxçıvan MR-in Ali Məclisinin beynəlxalq münasibətlərdəki təmsilçilik funksiyası həm AR Konstitusiyasında, həm də Qanunda öz həllini tapmayıb. Naxçıvan MR-in ali vəzifəli şəxsinin – Ali Məclisin sədrinin Naxçıvanın sosial-iqtisadi inkişafı, elm, mədəniyyət və s. sahələrdə əməkdaşlıq üzrə beynəlxalq müqavilələrini bağlamaq səlahiyyəti ifadə edilməyib. Naxçıvan MR-in Azərbaycan Respublikasının tərkibində muxtar dövlət (m.134.I) olması ifadə etdiyimiz kimi məcburiyyətdən meydana gəlib. Naxçıvan MR-in Ali Məclisinin sədrinin qanunvericiliklə belə bir səlahiyyətə malik olması da Azərbaysan Respublikasının suveren hakimiyyətinin bölgüsü anlamına gəlmir. Yalnız Naxçıvan MR-in geosiyasi vəziyyəti ilə bağlı olur və Naxçıvan MR-in iştirakı ilə bağlanan beynəlxalq müqavilələrdə Naxçıvan MR Azərbaycan Respublikasının mənsubiyyətində göstərilməsi də mənsubiyyəti təsdiqləyir.

Naxçıvan MR-in geosiyasi vəziyyətini nəzərə alaraq Azərbaycan Respublikası Konstitusiyası və «Beynəlxalq müqavilələrin bağlanması, icrası və ləğvi qaydaları haqqında» 1995-ci il Qanununa əlavə edilməsi məqsədəuyğun olardı.

Konstitusiyanın 138-ci maddəsinin III hissəsi qəbul edilməli və ona aşağıdakı məzmun verilə bilər: «Bu madənin I hissəsində 3-7-ci bəndlərdə göstərilən məsələlər üzrə Naxçıvan MR-in Ali Məclisinin sədri beynəlxalq müqavilələr bağlaya bilər».

Azərbaycan Respublikası Konstitusiyası və «Beynəlxalq müqavilələrin bağlanması, icrası və ləğvi qaydaları haqqında» 1995-ci il Qanununda, xüsusən də, onun 7-ci maddəsində Naxçıvan MR-in ali vəzifəli şəxsinin xüsusi

səlahiyyəti olmadan beynəlxalq müqavilələr barəsində danışıqlar aparmaq və onları imzalamaq hüququ ifadə edilə bilər.

Müvafiq təklif üçün əsas Naxçıvan MR-in Konstitusiyasının 5-ci maddəsinin 8-ci bəndi də verməkdədir. Həmin madədə deyilir ki, Naxçıvan MR-in Ali vəzifəli şəxsi Naxçıvan MR-i xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla, habelə başqa fiziki və hüquqi şəxslərlə münasibətdə təmsil edir.

Eyni zamanda Naxçıvan MR-in Konstitusiyasının 5-ci maddəsinin 3-cü hissəsi də ifadə etdiyimiz təklifin ruhunda formalaşdırılıb. Müvafiq müddəada deyilir ki, Naxçıvan MR-in Ali vəzifəli şəxsi Naxçıvan MR-in mənafeləri ilə bağlı iqtisadi və mədəni məsələlərdə, Naxçıvan MR-in Konstitusiyası ilə müəyyən edilmiş həddə və Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan MR-i təmsil edir.

## ƏDƏBİYYAT


1. Sadıqov Ə.İ. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı: BDU, 2008, 325 s.
2. Sadıqov Ə.İ. Qlobal enerji təhlükəsizliyi və beynəlxalq hüquq. Bakı: BDU, 2008, 236 s.
3. Sadıqov Ə.İ. Beynəlxalq enerji hüququ enerji təhlükəsizliyinin təminat sistemi kimi. Bakı: BDU, 2012, 325 s.
4. Венская Конвенция о праве международных договоров. Комментарий. Сост. А.Н.Талалаев. М.: Юрид. лит., 1997, 336 с.
5. Walde W.T. International Energy Law: Concepts, Context and Players. Scotland, University of Dundee, 2001, 108 p.
6. www.e-qanun.az
7. www.nakhchivan.az


## НЕКОТОРЫЕ МЕЖДУНАРОДНО-ПРАВОВЫЕ ВОПРОСЫ СОТРУДНИЧЕСТВА НАХИЧЕВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ С ДРУГИМИ ГОСУДАРСТВАМИ В ОБЛАСТИ ПЕРЕВОЗКИ ЭЛЕКТРОЭНЕРГИИ И ПРИРОДНОГО ГАЗА

**С.В.ТАЛЫБОВ**

### РЕЗЮМЕ

В статье исследуются некоторые международно-правовые вопросы сотрудничества Нахичеванской Автономной Республики с другими государствами в области перевозки электроэнергии и природного газа. Отмечается, что автономное положение Нахичеванской Автономной Республики требует обратить особое внимание на международное сотрудничество в энергетическом обеспечении. Автор детально анализирует основные соглашения Нахичеванской Автономной Республики с Ираном и Турцией в сфере перевозки электроэнергии и природного газа.

**Ключевые слова:** электроэнергия, природный газ, региональное сотрудничество, энергетические ресурсы, договор, меморандум, конституция, геополитическая ситуация

**SOME INTERNATIONAL LEGAL QUESTIONS OF COOPERATION OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC WITH OTHER STATES IN THE FIELD OF TRANSPORTATION OF THE ELECTRIC ENERGY AND NATURAL GAS**

**S.V.TALIBOV**

The article analyzes some international legal questions of cooperation of the Nakhchivan Autonomous Republic with other states in the field of transportation of the electric energy and natural gas. It is noticed that the autonomous position of the Nakhchivan Autonomous Republic demands to pay special attention to the international cooperation in energy maintenance. The author analyzes the basic agreements of the Nakhchivan Autonomous Republic with Iran and Turkey in the sphere of transportation of the electric energy and natural gas.

**Key words**: electric energy, natural gas, regional cooperation, energy resources, treaty, memorandum, constitution, geopolitical situation